

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 88 (23.975)

13 may 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər.

Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən "Şuşa İli"ndə keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunub. Mayın 14-də başa çatacaq sayca beşinci festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar.

Hələ 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şuşanın azad olunması münasibətilə xalqa müraciətində qeyd etmişdi ki, Qarabağın tacı olan bu şəhər tezliklə dirçəldiləcək və özünün əvvəlki şöhrətini qaytaracaqdır. Ötənilki festivalın açılış mərasimində isə dövlətimizin başçısı "Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək", – demişdi. V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının keçirilməsi Prezidentimizin həmin fikirlərinin əyani təsdiqidir.



## Yerquruluşu və kadastr kabinəsi fəaliyyətə başlayıb

Naxçıvan Dövlət Universitetində Yerquruluşu və kadastr kabinəsi fəaliyyətə başlayıb. Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə açan ali təhsil ocağının rektoru Elbrus İsayev Ali Məclis Sədrinin müvafiq sərəncamlarına əsasən ixtisasların təşkilatlara hamiliyə verilməsinin əhəmiyyətindən bəhs edib. Diqqətə çatdırılıb ki, universitetdə 75 bakalavr dərəcəsi üzrə kadr hazırlığı həyata keçirilir ki, bunlardan 40-dan artıq ixtisas müxtəlif dövlət müəssisələrinə hamiliyə verilib. Qeyd edilib ki, bu gün savadlı kadrların yetişməsi, onların peşəkar mütəxəssis kimi formalaşması, iş yerləri ilə təmin olunması dövlət orqanları ilə əməkdaşlığın nəticəsidir.



Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin ali təhsil ocağının xəritə, ədəbiyyat, atlas, tədris vəsaitləri və müxtəlif cihazlarla təmin etməsi səmərəli kadr hazırlığı məqsədi daşıyır. Rektor fəaliyyətə başlayan Yerquruluşu və kadastr kabinəsinin sərbəst, diplom işlərinin, startap və layihələrin hazırlanmasında, peşəkar kadr hazırlığında əhəmiyyətli rol oynayacağını bildirib, kabinənin yaradılmasında göstərilən xüsusi diqqətə görə hami təşkilata universitet adından minnətdarlığını ifadə edib.

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə Ali Məclis Sədrinin müvafiq sərəncamları ilə müəyyənləşdirilən vəzifələrin icrası, hamiliyə verilən ixtisaslarda təhsil alan tələbələrin bacarıqlı mütəxəssis kimi formalaşması istiqamətində görülən işlərdən danışıb. Qeyd edilib ki, yeni yaradılan kabinə tələbələrin elmi-nəzəri biliklərinin möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edəcək. Kabinə tələbələrə praktik vərdişlərin aşılanması üçün lazım olan müasir alət və avadanlıqlar, kartoqrafiya materialları və dərs vəsaitləri ilə zənginləşdirilib. Kabinədə yerquruluşu, geodeziya, kartoqrafiya və kadastr işlərinin aparılması ilə bağlı stendlər quraşdırılıb, kadastr və inventarlaşdırma işlərinə dair müxtəlif illərdə tərtib olunan sənədlərin və xidmətin nəşrlərinin nümunələri qoyulub.

Bildirilib ki, kabinədə elektron lövhə və zəruri proqram təminatı yüklənən kompüter dəsti quraşdırılıb. Onların xidmətlə onlayn əlaqəsi təmin edilib. Xidmətin əməkdaşları tərəfindən istifadə olunan müasir informasiya sistemləri, tətbiq edilən texnoloji yeniliklər, həyata keçirilən proseslər haqqında ətraflı məlumat verilib.

Tədbirin sonunda xidmət tərəfindən kabinəyə təqdim edilən avadanlıqlara, tədris vəsaitlərinə baxış olub.

Məlumat üçün bildirək ki, tədris prosesində istifadə məqsədilə xidmət tərəfindən universitetə müxtəlifməzmunlu və miqyaslı xəritələr, qlobuslar, kompaslar, təkərli və lazerli məsafəölçənlər, elektron bucaqölçən, praktik geodeziya ölçmələrinin aparılması məqsədilə 1 dəst GPS, 1 əl GPS-i, 1 dəst elektron taxeometr, 1 dəst nivelir hədiyyə olunub.

*Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi*

## Torpaqlardan səmərəli istifadə diqqətdə saxlanılıb

Muxtar respublikada əmlak və torpaq münasibətlərinin nizamlanmasında fəaliyyətin təkmilləşdirilməsi Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən aprel ayında da diqqətdə saxlanılıb.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı" və "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"na uyğun olaraq Kəngərli rayonunun Qıvraq qəsəbəsində, Şahbuz rayonunun Külüs kəndində və Babək rayonunun Babək şəhərində bələdiyyə sədrlərinin, ailə təsərrüfatı başçılarının, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilib.

Ay ərzində 635 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 457 texniki sənəd hazırlanıb. Yeni yaranmış 39 daşınmaz əmlak obyektinə ünvan verilib, 101 torpaq sahəsinin planölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb. Kəngərli rayonu üzrə 15 dislokasiya xəritəsi hazırlanıb aidiyyəti üzrə təhvil verilib.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun Axura, Aşağı Yaycı, Şahbuz rayonunun Sələsüz, Daylaqlı, Mərəlik kəndlərinin və Kəngərli rayonunun Qıvraq qəsəbəsinin ərazisində monitorinqlər başa çatdırılıb, müəyyən edilmiş qanun pozuntularının aradan qaldırılması istiqamətində tədbirlər görülüb. Şahbuz rayonunun Türkeş, Kiçikoba, Şahbuzkənd, Külüs və Keçili kəndlərinin ərazisində monitorinqlər davam etdirilib.

Ötən ay mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və daşınmaz əmlakla bağlı digər əməliyyatların aparılması üçün vətəndaşlardan 1382 ərizə qəbul edilərək icra olunub. Kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranmış hüquqlara dair 1410 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilib. 6 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar ailə təsərrüfatlarının icarəsinə verilmiş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti*

## Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin yenilənmiş rəsmi internet saytı istifadəyə verilib

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin yenilənmiş rəsmi internet saytının təqdimatı olub. Tədbiri xidmətin direktoru Bəxtiyar İsmayılov açaraq bildirib ki, muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində və elektron xidmətlərin müasir tələblərə uyğunlaşdırılması istiqamətində genişmiqyaslı işlər aparılmaqdadır. Bu tədbirlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin internet səhifəsi də ən müasir proqramlaşdırma dillərindən istifadə edilərək funksionallıq və innovativ yeniliklərin tətbiqi baxımından daha geniş imkanlara sahib olmaqla modern üslubda və dizaynda yenidən hazırlanıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşları tərəfindən dizayn və üslub baxımından təkmilləşdirilən saytın müasir formada tərtibatı xidmətin fəaliyyətinə dair informasiya istehlakçılarının mütəmadi olaraq məlumatlandırılmasına daha geniş və operativ imkanlar yaradacaq. Dizayn, quruluş və məzmun baxımından zəruri tələblərə cavab verən yeni sayt xidmətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin, bu sahədə olan yeniliklərin, həyata keçirilən tədbirlərin daha dolğun və operativ şəkildə ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir. Bəxtiyar İsmayılov yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.



Qeyd edək ki, *aibn.nakhchivan.az* domen adı ilə təqdim olunan saytın ana səhifəsində istifadəçilər xidmətin və onun struktur bölmələrinin fəaliyyət istiqamətləri ilə tanış ola, bölmə və altbölmələrə keçid edə bilərlər.

"Mətbuat" bölməsində "Xəbərlər" altbölməsinə keçid təmin olunub və muxtar respublikanın ictimai həyatında baş verən hadisələr öz əksini tapıb. "Məqalələr" altbölməsində xidmətin funksional fəaliyyətinə və əlamətdar günlərə dair materiallar, "Hesabatlar" bölməsində isə aylıq hesabatlar yer alıb. "Fotoqalereya və videoqalereya" bölməsində xidmətə dair müvafiq şəkil və videolar yerləşdirilib. "Faydalı linklər" bölməsində bir sıra internet saytlarına keçidlər qeyd edilib, saytın "Naxçıvan Muxtar Respublikası" adlı bölməsində isə muxtar respublikamızla bağlı fotoşəkillər slayd formasında yerləşdirilib.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin internet səhifəsinin SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, saytın optimizasiyası (SEO-Search Engine Optimization), axtarış sistemlərinə uyğunlaşdırılması, Google axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mütəxəssisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib, eləcə də domenə bağlı e-poçt adresləri ilə təmin olunub.

*Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin mətbuat xidməti*

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər aprel ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 56 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 404 müraciət daxil olmuşdur ki, onlardan 193-ü əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda qanunvericiliyin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Hesabat ayında olduğu yer üzrə qeydiyyatla bağlı 211 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 50-si elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir. Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti*

Səhiyyə

# Dövlət qayğısı muxtar respublikada daha keyfiyyətli sanitar-epidemioloji xidmətin göstərilməsinə zəmin yaradır

*Muxtar diyarımızda həyata keçirilən səhiyyə islahatlarının tərkib hissəsi kimi gigiyena və epidemiologiya tədbirlərinə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin və onun rayon şöbələrinin fəaliyyəti təmin edilib, yeni binalar istifadəyə verilib, avadanlıqlar alınıb, müasir laboratoriyalar qurulub, ştat strukturu təsdiq olunub. Ali Məclis Sədrinin 2022-ci il 15 fevral tarixli Sərəncamına əsasən təsdiq edilən "Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı" da bu sahədə fəaliyyətin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.*

Fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ali Məclisin Sədri cənab Vasif Talıbov deyib: ***"Naxçıvan Muxtar Respublikasında gigiyena-epidemiologiya və baytarlıq təbabəti sahəsində Dövlət proqramlarının qəbul olunması, həyata keçirilən qabaqlayıcı profilaktik tədbirlər sağlam ətraf mühit və sağlam qida təminatına imkan verir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikada sanitar-epidemioloji vəziyyət sabitdir".*** Ali Məclisin Sədri ötən dövr ərzində bu sahədə həyata keçirilən tədbirlər və nəticələrdən bəhs edərək aidiyyəti qurumlar qarşısına tapşırıqlar qoyub: ***"Fövqəladə Hallar Nazirliyi və Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən martın 1-dən etibarən bütün yaşayış məntəqələrində və əhali sıxlığı müşahidə olunan yerlərdə qrafikə uyğun dezinfeksiya işləri aparılmalıdır. Xüsusilə bazarlar və böyük ticarət mərkəzləri, mədəniyyət müəssisələri, turistik yerlər, bayram günlərində isə uşaq-musiqi və bədii sənətkarlıq məktəbləri, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, eləcə də digər idarə, müəssisə və təşkilatların inzibati binaları və xidmət sahələri mərhələli şəkildə dezinfeksiya olunmalıdır. Ticarət və xidmət sahələrində sanitar-gigiyena qaydalarına əməl olunması əhalinin sağlamlığının qorunmasında vacib amildir".***





Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mənsumova ilə söhbətimiz bu barədədir. Zeynəb həkim ötən dövr ərzində görülən işlərdən danışarkən qeyd etdi ki, muxtar respublikada aparılan ardıcıl əks-epidemik tədbirlər çərçivəsində səhiyyə sistemi və sanitar-epidemioloji xidmətin fəaliyyəti yenidən qurularaq günün tələbləri səviyyəsinə çatdırılıb. Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə və laboratoriyaları ən son tibbi avadanlıqlarla təchiz edilib. Pandemiya ilə əlaqədar olaraq mərkəzin tərkibində Xüsusi təhlükəli xəstəliklər laboratoriyası yaradılıb, işin keyfiyyətlə aparılması üçün lazımi dərman preparatları ilə təmin edilib.

İdarəolunan yoluxucu xəstəliklərə qarşı peyvənd işinin təşkili, dezinfeksiya, dezinseksiya, derartizasiya, delarvasiya tədbirlərinin ardıcıl və keyfiyyətlə aparılması insanların sağlam ətraf mühitdə yaşamasını təmin edib. Həyata keçirilən uğurlu sosial-ekoloji siyasət tədbirləri çərçivəsində geniş yaşıllıq zolaqlarının salınması, yeni su anbarlarının tikilməsi muxtar respublika ərazisində epidemioloji şəraitin yaxşılaşdırılmasına və əksər yoluxucu xəstəliklərin ləğvinə səbəb olub. Yeni Dövlət proqramı Naxçıvan Muxtar Respublikasında əhalinin sanitar-epidemioloji vəziyyətinin qorunması, sanitariya mədəniyyətinin formalaşmasına nail olmaq və epidemioloji xidməti müasir tələblərə uyğun qurmaq üçün əlverişli şərait yaradacaqdır. Proqramın əsas məqsədi sanitar-epidemioloji sabitliyin qorunub saxlanılması, gigiyena və epidemiologiya tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi, yoluxucu və parazitar xəstəliklərin yayılmasının qarşısının alınmasıdır. Muxtar respublikada sanitar epidemioloji xidmət səviyyəsinin yüksəldilməsi sahəsində həyata keçirilən tədbirlər və yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımızı bildirir və söz veririk ki, bundan sonra da tövsiyə və tapşırıqları uğurla yerinə yetirəcəyik.



Muxtar respublikada aparılan əks-epidemik tədbirlər barədə danışan həkim bildirdi ki, muxtar respublikada vərəm xəstələrinin sayı ötən illə müqayisədə xeyli azalıb. Buna xəstəliyə qarşı bütün səhiyyə orqanları tərəfindən aparılmış profilaktik və əks-epidemik tədbirlər nəticəsində nail olunub. Aktiv xəstələrin və mantu sınağının nəticələrinə əsasən risk qruplarının aşkarlanması və ehtiyac olanların kimyəvi profilaktikaya cəlb edilməsi, flüoroqrafik müayinələrin aparılması planlı surətdə həyata keçirilib. 2021-ci ilin may və noyabr aylarında 26984 nəfərə mantu sınağı qoyularaq 32 nəfərdə hiperegik reaksiya qeydə alınıb. Hiperegik reaksiyalı uşaqlar kimyəvi profilaktikaya cəlb olunur və hər 6 aydan bir rentgen müayinəsinə göndərilir. Muxtar respublika ərazisində COVID-19 virus pandemiyası əleyhinə profilaktik tədbirlərin davamı olaraq 2021-ci ilin fevral ayından 2022-ci ilin may ayının 6-na qədər, ümumilikdə, 259675 vaksin vurulub.

Muxtar respublika ərazisində kəskin respirator virus infeksiyalarının qarşısının alınmasının da diqqətdə saxlanıldığını deyən həkim bu barədə də ətraflı məlumat verdi:

– 2021-ci ilin yanvar-fevral aylarında uşaq və yeniyetmə müəssisələri, tibb işçiləri, idarə və təşkilatlarda 15 min qrip əleyhinə peyvənd aparılıb. Həmçinin qanla işləyən risk qrupuna daxil olan tibb işçiləri, dializli xəstələrə 2021-ci ildə 563 doza HB peyvəndi (3 mərhələdə) vurulub. 200 doza HB əleyhinə peyvənd isə təmas qruplarına, bu ilin yanvar ayında isə qrip əleyhinə 3000 doza peyvənd vurulub.

Bəhs olunan dövrdə 6417 nəfər obliqat qruplarında bakterioloji müayinə aparılıb. Əhalinin sanitariya sahəsində maariflendirilməsi məqsədilə bir sıra işlər həyata keçirilmişdir.



Cari ilin yanvarın 5-dən aprelin 15-dək muxtar respublikada 8315 obyektdə 3 milyon 317 min 520 kvadratmetr dezinfeksiya işləri aparılıb. Zoonoz infeksiyalarına qarşı profilaktik və əks-epidemik tədbirlərin aparılması məqsədilə Dövlət Baytarlıq Xidməti, məişət tullantılarının zərərsizləşdirilməsi ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə, su təchizatı obyektlərində sanitar-gigiyenik norma və qaydaların yerinə yetirilməsinə nəzarət üçün müvafiq təşkilat, icra hakimiyyəti və yerli qurumlarla birgə "Tədbirlər Planı" hazırlanaraq mütəmadi olaraq tətbiqi həyata keçirilməkdədir.

Yeni Dövlət proqramında Gigiyena və Epidemiologiya Mərkəzinin və onun tabe təşkilatlarının qarşısında mühüm və təxirəsalınmaz vəzifələrin qoyulması muxtar respublikada insan amilinə daha bir qayğının ifadəsi olduğunu vurğulayan Zeynəb Mənsumova qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi müvafiq Sərəncamın icrası məqsədilə mart ayının 1-dən işlərə başlanılmışdır. Bu məqsədlə məsul şəxslər ayrılmış və icrası nəzarətdə saxlanılır. İndiyədək qida və toksikoloji laboratoriyalar tərəfindən müayinələr aparılmışdır.

Sanitar-epidemioloji vəziyyətlə bağlı Şərur, Şahbuz rayon mərkəzi xəstəxanaları və ambulatoriyalarında monitorinqlər aparılmışdır. İstehsal və xidmət obyektlərində sanitar-gigiyenik vəziyyətə görə şadlıq sarayları, istehsal obyektlərində, ərzaq mağazalarında yoxlamalar həyata keçirilmişdir.

Kütləvi qeyri-infeksion xəstəliklərin qarşısının alınması məqsədilə müəssisələrdən yemək nümunələri götürülmüş, yoxlanılmışdır.

Muxtar respublika ərazisində ətraf mühit amillərinin əhalinin sağlamlığına təsiri daim diqqətdə saxlanılır. Bu məqsədlə hər ay 5-i şəhər ərazisində, 7-si rayonlarda olmaqla, 12 yerdə radiasiya yoxlanılır.

Bütün bunlar onu deməyə əsas verir ki, yaradılan şəraitdən səmərəli istifadə edilməklə qarşıya qoyulan vəzifələrin icrası istiqamətində görülən tədbirlər nəticəsində muxtar respublikamızda sanitar-epidemioloji vəziyyət bundan sonra da sabit olacaq.

✍ Ramiyyə ƏKBƏROVA

# "Darıdağ" arsenli suyu böyük müalicəvi əhəmiyyətə malikdir



***Son dövrlərdə bütün dünyada inkişaf edən və getdikcə daha çox turist kütləsini özünə cəlb edən sahələrdən biri də termal turizmdir. Yüksək temperatura malik yeraltı mineral su və palçıq mənbələrindən istifadə edilməklə müalicə imkanları təqdim edən termal turizm Yaponiya, Almaniya, İtaliya, Fransa, İsveçrə, Yunanıstan, Rusiya, Macarıstan kimi ölkələrdə turizmin mühüm bir hissəsini əhatə edir. Elə qardaş Türkiyə Respublikası da bu sahənin inkişafında əhəmiyyətli yerlərdən birinə malikdir. Belə ki, Türkiyə termal mənbələr baxımından Avropada birinci, dünyada isə yeddinci yerdədir.***

Naxçıvan Muxtar Respublikasını turizm üçün səciyyəvi edən də bu qədim diyarda turizmin bir çox növləri, o cümlədən termal turizm üçün təbii şəraitin mövcud olmasıdır. Ümumilikdə, müalicə turizminin inkişafı baxımından zəngin potensiala malik muxtar respublikada çoxsaylı mineral su mənbələrinin olması termal turizmin inkişafı üçün geniş imkanlar açır. Naxçıvanda bu turizm sahəsinin inkişafı üçün ən böyük mənbə "Darıdağ" arsenli mineral suyudur.

Öz spesifik xüsusiyyətləri ilə seçilən "Darıdağ" müalicəvi suyunun araşdırılması hələ 1830-cu ildə Q. Boskoboynikov, 1868-ci ildə Arxilov və Sulkidze tərəfindən aparılıb, 1928-ci ildə isə Lanqvaqren suyun geoloji kəşfi ilə yanaşı, kimyəvi tərkibini də öyrənib. Sonralar da "Darıdağ" suyunun kimyəvi, fiziki, balneoloji, müalicəvi və başqa xüsusiyyətləri Azərbaycan Elmi-Tədqiqat və Fiziki-Təbii Amillərlə Müalicə İnstitutunun, Azərbaycan Dövlət Tibb Universitetinin, Azərbaycan Milli Elmlər Akademiyasının Təbii Amillərlə Müalicə Bölməsinin əməkdaşlarından akademik M.Qaşqay, A.Qarayev, professor Ə.Əsgərov, M.Əfəndiyev, Ş.Həsənov və başqaları tərəfindən ətraflı öyrənilib. Son dövrlərdə isə professor Ə.Musayev öz təcrübələrində aşkar edib ki, "Darıdağ" arsenli isti suyunda müalicə olunan xəstələr üçün müəyyən edilmiş bir seansın müddəti 10-12 dəqiqədən artıq olmamalıdır. Əks-halda ürək-qan damarlarının genişlənməsi baş verər. "Darıdağ" suyu karbon qazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur: Kudova (Polşa), Dürkgeym (Almaniya), Sineqorsk (Saxalin) sularının analoqudur. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyinə görə "Darıdağ" suyu onlardan üstündür.

"Darıdağ" suyu qanyaradıcı xüsusiyyətə malik olub, qan dövranı üzvlərinin fəaliyyətinə müsbət təsir edərək periferik qanın morfoloji tərkibini yaxşılaşdırır – leykositlərin faqositoz qabiliyyətini artırır, qanazlığını aradan qaldırır. Daxili ifrazat sistemini fəallaşdırır, vegetativ sinir fəaliyyətini gücləndirməklə mədə, qaraciyər, böyrək və ürək əzələsində mübadiləni sürətləndirərək onların funksional vəziyyətini normallaşdırır. Bu xüsusiyyətlərinə görə "Darıdağ" suyu mədə, öd kisəsi, qaraciyər və vegetativ sinir sistemi ilə əlaqəli başqa xəstəliklərin müalicəsində də geniş tətbiq edilir. "Darıdağ" suyunun maddələr mübadiləsinə təsirini öyrənən bir çox alimlər onun mübadilə pozğunluğundan yaranan artritlərə qarşı müalicəvi təsirini sübuta yetiriblər. Suyun təsirindən yaraların çirkdən tez təmizlənməsini, çətin sağalan yaraların qısa müddətə, həm də çapıqsız sağalmasını həkimlər onun antiseptik, faqositar və bakterisid qabiliyyəti ilə əlaqələndirirlər. Müəyyən edilibdir ki, mərgümüşün litium, brom, maqnezium, radioaktiv elementlər və başqa əhəmiyyətli maddələrlə müştərək təsiri maddələr mübadiləsinin bərpasına, periferik sinir sisteminin fəallaşmasına müsbət təsir göstərir.

"Darıdağ" suyundan hələ qədim zamanlardan kustar şəkildə sümük-oynaq, əzələ sistemi xəstəliklərinin, o cümlədən "duzlaşma" adlanan patologiyalar və onun müxtəlif fəsadlarının müalicəsində geniş istifadə edilib. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizdə müalicəvi suların olduğu yerlərdə səhiyyə ocaqlarının, sanatoriyaların tikilməsi istiqamətində həyata keçirilən tədbirlər 1978-ci ildə Darıdağda da müalicəxananın yaradılmasına imkan verib. Culfa şəhərindən 8-9 kilometr şimal-şərqdə, Darıdağın sıldırım yamacları arasında, dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən müalicəxananın fəaliyyətində ötən əsrin 90-cı illərində məhdudiyyətlər yaransa da, 2005-ci ildə müəssisə yenidən qurularaq istifadəyə verilib. Ötən müddətdə müalicəxana ölkə vətəndaşları ilə yanaşı, xarici ölkələrdən gələnlərin də sağlamlığının bərpa olunmasında mühüm rol oynayıb, termal turizmin inkişafına geniş imkanlar açıb. Son dövrlərdə isə muxtar respublikanın səhiyyə sistemində həyata keçirilən tədbirlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 16 oktyabr tarixli Sərəncamı ilə Darıdağ Arsenli Su Müalicəxanası yenidən təşkil edilərək publik hüquqi şəxs statusu alıb. Hazırda bu müalicəxanaya yerli xəstələrlə yanaşı, xarici ölkələrdən də pasiyentlər müraciət edirlər.



Məlumdur ki, müasir dövrdə müalicə turizminin öz tələbləri var. Yalnız bu tələblərə uyğun iş aparılmaqla turizmin bu sahəsini inkişaf etdirmək mümkündür. Elə bu amil nəzərə alınaraq 2019-cu ildən bu müalicəxana üçün yaxınlıqdakı ərazidə yeni kompleks tikilir. Həmçinin bu səhiyyə müəssisəsinə gedən avtomobil yolunun yenidən qurulması da gediş-gəlişi xeyli rahatlaşdıracaq.

Qeyd edək ki, "Darıdağ Arsenli Su Müalicəxanası" publik hüquqi şəxsi üçün tikilən yeni kompleks istifadəyə verildikdən sonra burada müalicə olunanlara yüksək səviyyəli xidmət göstərmək üçün lazımi şərait yaranacaq. Eyni zamanda müalicəxana daha çox xəstə qəbul edə biləcək. Bütün bunlar isə Naxçıvanda termal turizmin inkişafına geniş imkanlar açacaq.

**İsgəndər MEHDİYEV**
***Naxçıvan Dövlət Universitetinin müəllimi, kimya üzrə fəlsəfə doktoru***

***“Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 1 iyun tarixli Sərəncamında bu mətbuat orqanı Naxçıvanın tarixini və keçdiyi inkişaf yolunu gələcək nəsillərə çatdıran bir salnamə kimi dəyərləndirilmişdir. Sərəncamdan irəli gələn “Tədbirlər Planı”na uyğun olaraq həmin istiqamətdə daha dərindən və sistemli araşdırmalar aparılmışdır. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilovun bu yaxınlarda işıq üzü görən “Şərq qapısı” qəzetinin nəşri tarixinin ilk mərhələsi və yeni ədəbi mühitin formalaşmasında rolu” adlı kitabı da bu istiqamətdə aparılan araşdırmaların uğurlu nəticəsidir.***

*Yeni nəşrlər*

# 100 yaşlı qəzet haqqında yeni kitab

Kitabın elmi redaktoru AMEA-nın həqiqi üzvü Teymur Kərimli, rəyçisi isə AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərlidir. Kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin gənc nəslin tərbiyə olunmasında bu nüfuzlu qəzetin mühüm təsirini yüksək qiymətləndirən fikirləri ilə başlanır: ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”.*** Sonra qəzetin yüzillik yubileyi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamının mətni oxuculara təqdim olunur.




Kitab iki bölmədən, “Şərq qapısı” qəzetinin 1923-1926-cı il nömrələrində dərc olunan bəzi materialların biblioqrafiyası və qəzetin tarixində mühüm rol oynamış şəxsiyyətlərin fotoşəkillərindən ibarətdir. Giriş hissədə müəllif “Şərq qapısı” qəzetini qədim diyarın keçdiyi keşməkeşli inkişaf yolunun tam mənzərəsini canlandıran bir güzgü hesab edir. 1990-cı ilədək hakim ideologiyaya xidmət vəzifəsini yerinə yetirməyə məcbur olan bu qəzetin milli-mənəvi dəyərlərimizin və maarifçilik tədbirlərinin təbliği istiqamətindəki fəaliyyəti, yenitipli ədəbi-mədəni mühitin formalaşması və inkişafındakı xidmətləri dəyərləndirilir. Xüsusən 1990-cı ilin Qanlı Yanvar günlərində müstəqil bir qəzet kimi nəşr olunan qəzetin səkkiz nömrəsi Azərbaycanın senzurasız mətbuatının ən qiymətli nümunələri hesab olunur.

“Qəzetin nəşri tarixinin ilk mərhələsi” adlanan birinci bölmədə ideoloji məqsədlə qəzet çap olunması ilə bağlı irəli sürülən təşəbbüslər – “Kommunist”, “Naxrespublika” kimi qısaömürlü qəzetlərin çapı ilə bağlı problemlər, “Cavanlar həyatı” qəzetinin ilk nömrəsinin yubanması səbəbləri, mətbəə avadanlıqlarının çatışmaması, ixtisaslı kadrların, mürəttiblərin olmaması, bu məqsədlə İrəvandan iki mütəxəssisin Naxçıvana dəvət olunması, müxbirlərin məlumat yazmaqda ehtiyatlı davranmaları və digər məsələlər diqqətə çatdırılır. Dövrün reallıqları, çətinliklər və siyasi rejimin güvənilməzliyi barədə tədqiqatçıların, qəzetin müxbirləri və dövrün şahidlərinin araşdırmalarına, arxiv materiallarına, müxtəlif məqalə və xatirələrə əsaslanaraq qəzetin nəşri tarixi ilə bağlı bir çox mübahisəli məqamlara işıq salınır, bu işdə fəallıq göstərən şəxsiyyətlərin, dövrün tanınmış ziyalılarının xidmətləri hörmətlə yad edilir. Müəllifin arxiv və həmin dövrün mətbu materiallarına əsaslanan qəzetin “Şərq qapısı” adı ilə 1923-cü ilin əvvəlində, ikinci dəfə isə 1923-cü ilin 28 iyulundan nəşr olunması ilə bağlı tarixləri dəqiqləşdirməsi və 1925-ci ilin avqust ayında Naxçıvanda iki gün davam edən Birinci Müxbirlər Qurultayı, onun qarşısına qoyulmuş məqsədlər, gündəliyindəki əsas məsələlər barədəki araşdırmaların nəticələri Naxçıvan mətbuatı tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malik faktlardır. Qəzetin ilk redaktorlarından olan Əvəz Sadığın “Qəzetəmizin yazı və mətbuat tarixinə bir nəzər”, “Qəzetəmiz və məktəb”, “Şərq qapısı”nın getdiyi və gedəcəyi yol” və digər məqalələri, Əli Həsənzadə, Məhəmmədağa Axundov və digərlərinin “Şərq qapısı” qəzetinə həsr olunan yazıları onun nəşrə başlaması və inkişaf yolunun ilk mərhələsi haqqında məlumat verən dəyərli mənbələr kimi yüksək qiymətləndirilir. Qəzetin müxtəlif illər üzrə redaktorları, ilk qadın redaktoru müəyyənləşdirilmiş, 1933-1934-cü illərə qədər redaktor əvəzinə çox zaman “heyəti-təhririyyə” sözünün yazılması kimi məqamlar tədqiqatçı həssaslığı ilə incələnmişdir. Yazıçı Əli Vəliyevin redaktorluğu dövründə qəzetin tirajının iki min nüsxədən on min nüsxəyədək qalxması, oxucuların diqqətini daha çox cəlb edən aktual mövzularda yazıların yer alması, eyni zamanda tanınmış yazıçı və ictimai xadim Mirzə İbrahimovun da Naxçıvan MTS-in “Sürət” qəzetinin redaktoru vəzifəsində çalışması ilə Naxçıvan ədəbi-mədəni mühitində yaranmış canlanma müəllifin fikrincə, qəzetin inkişafı tarixində xüsusi bir mərhələnin – əvvəlki illərə nisbətən yüksəliş mərhələsinin əsasını qoymuşdur. Qəzetin ilk qadın redaktoru Məsudə Nuruyeva, repressiya illərində tez-tez redaktorların dəyişdirilməsi və cəzalandırılması, 1932-1941-ci illərdə qəzetin şöbə müdiri işləmiş “uşaq ədəbiyyatımızın cəfakeş nümayəndəsi” Əbdül Kazımın faciəli həyatı haqqındakı məlumatlar qəzetin həmin illərdə olduqca çətin və keşməkeşli yollardan keçdiyini bir daha təsdiqləyir. Müəllifin qəzetin ilk yubiley nömrəsi barədə araşdırmalarının nəticələri də təqdirəlayiqdir. 1925-ci il mart ayının 23-nə nəzərdə tutulan, lakin 31 mart tarixində çap olunan bu nömrə üçün bir ay öncədən hazırlıq tədbirlərinin aparılması və qəzetin tarixində mühüm xidmətləri olan müxbir və tanınmış ziyalılardan məqalə və xatirələrin toplanılması nəticəsində qəzetin dörd ildə keçdiyi inkişaf yolu haqqında dolğun təsəvvür yaradılmışdır. Birinci bölmədə “Şərq qapısı” qəzetinin ilk qadın müxbirləri olan Səkinə Rasizadə, Siddiqə Bağırova, Qəşəng Kəngərli, Rübaba Sadıqova, Qəmər Nəcəfova və başqalarının həm şəxsiyyətləri, həm də qəzetdə çap olunan müxtəlif məzmunlu yazıları haqqında ilk dəfə olaraq ətraflı məlumat verilmişdir. Sovet hakimiyyətinin ilk illərindən etibarən Naxçıvan və eləcə də Azərbaycan qadınlar hərəkatının fəal üzvləri olan bu müxbirlər qadın azadlığı, maarif, mədəniyyət, səhiyyə, qız məktəbləri, savad kurslarının artırılması kimi son dərəcə aktual problemlərə həsr olunan məqalələri ilə diqqəti cəlb edən publisistik nümunələr kimi təqdim olunur.

Kitabın “Naxçıvanda yeni ədəbi mühitin formalaşmasında “Şərq qapısı”nın rolu” adlı ikinci bölməsində müəllifin araşdırmaları Naxçıvanda yeni ədəbi mühitin yaradılması və inkişafında “Şərq qapısı” qəzetinin regiondakı ilk elmi qurumla və ədəbi qüvvələrlə əməkdaşlığının mühüm əhəmiyyətə malik olması qənaətinə gəlməsinə əsas vermişdir. Qəzetin nəşrinin ilk illərində (1923-1925) onun səhifələrində ictimai məzmun daşıyan ədəbi-bədii nümunələrin və publisistikanın müxtəlif janrlarının gizli və açıq imzalarla yer alması diqqətə çatdırılır. 1925-ci ildə Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətində (NTTC) fəaliyyətə başlayan ədəbiyyat bölməsinə istedadlı romantik şair və dramaturq Hüseyn Cavidin qardaşı, tanınmış pedaqoq və şair Şeyx Məhəmməd Rasizadənin rəhbərliyi qəzetin yazılarında da mövzu və məzmun baxımından diqqətəlayiq novatorluğa səbəb olmuşdur. NTTC-nin fəal üzvlərindən olan Seyid Səbrinin poeziya, dramaturgiya və publisistika sahələrindəki əsərləri və tanınmış ictimai-siyasi xadim Mehdi bəy Hacınskinin nəzm və nəsrlə yazılan felyetonları gənc yazarlar üçün örnək hesab olunur. Bu janrın XX əsrin əvvəllərinə təsadüf edən formalaşma tarixi, bildiyimiz kimi, böyük satira ustası, Azərbaycan ədəbiyyatında tənqidi realizmin banisi Cəlil Məmmədquluzadə və onun redaktorluğu ilə dərc edilən “Molla Nəsrəddin” jurnalı ilə əlaqədardır. Müəllif bu bölmədə “Molla Nəsrəddin” dərgisində “Şərq qapısı” qəzetilə bağlı dərc olunan yazılara xüsusi yer ayırmış, onların bir-birilə qarşılıqlı əlaqə və münasibətlərinin tarixinə dair diqqətəlayiq məlumatlar vermişdir. Alimin araşdırmalarından aydın olur ki, “Molla Nəsrəddin” publisistika sahəsində qəzetin səlafi olaraq onun formalaşmasına mühüm təsir etməklə yanaşı, həm də “Şərq qapısı” qəzetini mötəbər bir mətbuat orqanı kimi qəbul etmiş və ara-sıra onun səhifələrində dərc olunan məqalələrə istinadlar etmişdir. Müəllifin araşdırmalarından o da aydın olur ki, bu illərdə tənqidi publisistik yazılara görə müxbirlər onları təqib edən məsul şəxslər tərəfindən yaradılmış problemlərlə, hətta həmin şəxslərin özlərini müdafiə üçün əl atdıqları saxtakarlıqlarla tez-tez üzləşmişlər. “Molla Nəsrəddin” jurnalının redaktoru Cəlil Məmmədquluzadənin ilk dəfə Fərman Xəlilov tərəfindən tədqiqata cəlb edilən məktubu da bu cür çətinliklərdən xəbər verir. “Molla Nəsrəddin” jurnalı yeri gəldikcə qəzetin daha mükəmməl tərtibatla çap olunması və abunə kampaniyasının təşkili, vaxtında oxuculara çatdırılması və digər məsələlərdə müvafiq məsləhətlər verməyi də məqsədəuyğun hesab etmişdir.

Kitabın “Şərq qapısı” qəzetinin 1923-1926-cı il nömrələrində dərc olunan bəzi materialların biblioqrafiyası” hissəsi Naxçıvanda yeni ədəbi-mədəni mühitin formalaşmasında bu qəzetin rolunu daha aydın və əyani təsəvvür etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Burada konkret illər üzrə “Şərq qapısı” qəzetində dərc olunan ictimai, elmi, ədəbi, maariflənmə və mədəniyyətin müxtəlif sahələrinin inkişafına dair 200-ə yaxın məqalənin siyahısı oxucuların istifadəsinə təqdim edilmişdir. “Fotoşəkillər” hissəsi isə “Şərq qapısı” qəzetinin tarixində xidmətləri olan şəxslərin – qəzetin rəhbəri, ilk redaktorları, qadın redaktor və müxbirləri, ilk fəhlə-kəndli müxbirlərinin tanıdılması baxımından əhəmiyyətlidir.

*Yuxarıda qeyd etdiklərimizdən belə bir nəticəyə gəlmək olar ki, filologiya elmləri doktoru Fərman Xəlilovun “Şərq qapısı” qəzetinin nəşri tarixinin ilk mərhələsi və yeni ədəbi mühitin formalaşmasında rolu” adlı kitabı qəzetin nəşr olunduğu ilk illərlə bağlı bir sıra rəqəmlərin dəqiqləşdirilməsi, yeni fikir və mülahizələrin irəli sürülməsi, qəzetin ilk redaktorları və müxbirlərinin həyatı və publisistik fəaliyyətilə bağlı əhatəli araşdırmaların nəticələri ilə əsaslandırılan və eyni zamanda arxiv sənədləri, elmi ədəbiyyatlara da istinad olunan dəyərli bir araşdırmadır.*

**Aygün ORUCOVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Muxtar respublikada ailə, qadın və uşaq hüquqları qorunur

***Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması aprel ayında da diqqətdə saxlanılmış, təlim, monitorinq və bir sıra digər tədbirlər keçirilmişdir.***

Bəhs olunan dövrdə xüsusi qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud bir ailəyə baş çəkilmiş, onların problemləri ilə maraqlanılmış və ailəyə ehtiyaclarına uyğun köməklik göstərilmişdir. Ailə institutunun gənclər arasında möhkəmləndirilməsi, qadınların hüquqi biliklərinin artırılması, sağlamlıqlarının qorunması, yeni nəslin sağlam doğulması və böyüməsi məqsədilə Ordubad rayonunun Dəstə kəndində “Reproduktiv sağlamlıq və ailə dəyərləri” mövzusunda tədbir keçirilmiş, 215 maarifləndirici broşür paylanılmışdır. Komitə “Naxçıvan” Universiteti ilə birgə “Gənc ailələrin sağlam olması gələcək nəsillərin sağlam olması deməkdir” mövzusunda tədbir keçirmiş, müxtəlif mövzularda çıxışlar olmuşdur.

Hesabat ayında komitədə “Naxçıvan Muxtar Respublikasında Suvarma və Drenaj Sistemlərinin İnkişafı Layihəsi” çərçivəsində muxtar respublikada həyata keçiriləcək işlərlə əlaqədar Asiya İnkişaf Bankı tərəfindən seçilmiş Fransanın SOFRECO və Banqladeşin BETS şirkətlərinin sosial və gender məsələləri üzrə yerli mütəxəssisi Əfsanə Tahirova, həmçinin İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunun Mədəniyyət attaşesi ilə görüşlər keçirilmişdir. Görüşlərdə muxtar respublikada həyata keçirilən dövlət qadın siyasətindən, əldə olunan uğurlu nəticələr və reallaşdırılmış sosial-yönümlü layihələr barədə məlumat verilmişdir.

“Qadınların Dayanıqlı İnkişafı üçün Səlahiyyətləndirilməsi” və “Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması” layihələrində sərmayə kapitalı verilmiş 9 qadının yaşadığı ünvanlarda sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmiş, heç bir neqativ hal və nöqsan aşkarlanmamışdır.

Kəngərli rayonunda yaşayan xüsusi qayğıya ehtiyacı olan ailənin üzvü və sağlamlıq imkanları məhdud qadınlara xalçaçılıq peşəsinin öyrədilməsi ilə bağlı təlim keçirilmişdir. Təlimdə 6 xüsusi qayğıya ehtiyacı olan ailədən, 6 sağlamlıq imkanları məhdud qadın və Kəngərli Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin 5 dərnək rəhbəri olmaqla, ümumilikdə, 17 qadın iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasında tək və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir. Bu istiqamətdə şəhər və rayon İcra hakimiyyətlərindən aid kateqoriyadan olan qadınlar haqqında məlumatlar alınmış, komitədə yaradılmış bazaya əlavə edilərək təhlili aparılmış, peşə təhsili alması ilə əlaqədar 11 qadının məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinə göndərilmişdir.

Özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən əl işləri mağazalarında və “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Kətə” festivalında 40 istedadlı qadının 2376 manat dəyərində 334 əl işi satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur.

“Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na uyğun olaraq 3 uşaq müəssisəsində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 2 uşağın evində monitorinq keçirilmişdir. Əlavə olaraq aprel ayında valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 2 uşağın qeydiyyatı aparılmışdır. Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair yaradılmış elektron məlumat bankına 286 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar aprel ayı ərzində Babək rayonu üzrə tədrisə cəlb edilməmiş 41 sağlamlıq imkanları məhdud uşağın təhsil aldığı 8 müəssisədə, həmçinin 5 sağlamlıq imkanları məhdud uşağın məktəbəqədər təhsil müəssisələrinə cəlbi ilə bağlı evlərində monitorinq keçirilmiş, bir uşaq məktəbəqədər müəssisəyə cəlb edilmişdir. Ümumtəhsil müəssisələrində tədrisə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə Babək rayon Güznüt kənd tam orta məktəbində valideyn, şagird və müəllimlər arasında maarifləndirici tədbir keçirilmişdir. Ümumdünya Autizm Məlumatlandırma Günü ilə əlaqədar Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında xalq nağılı əsasında hazırlanmış “Keçinin qisası” tamaşasına autizmli uşaqlar daxil olmaqla, ümumilikdə, 70 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmişdir.

Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümü ilə əlaqədar Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini çıxış etmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Təlim keçilib



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə ali təhsil ocağının Beynəlxalq münasibətlər və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri üçün “Təqsirsizlik prezumpsiyasında trasologiya, mövcud problemlər, yol verilən nöqsanlar və həlli üsulları” mövzusunda təlim keçilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri İlqar Mirzəyev tərəfindən keçilən təlimdə Ali Məhkəmənin Mülki Kollegiyasının sədri vəzifəsini icra edən Əli Allahverdiyev və Kommersiya Kollegiyasının sədri Əhliman Xıdırov iştirak ediblər.

Tədbiri giriş sözü ilə universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı Yusif Hüseynov açıb.

Əli Allahverdiyev təlimin tələbələrin cinayət hüququ sahəsinə olan maraqlarının daha da artmasına xidmət etməklə yanaşı, cinayətlərin məhkəməyəqədərki təhqiqatı barədə onlarda zəruri biliklərin formalaşmasına töhfə verəcəyini bildirib.

Slayd müşayiəti ilə keçilən təlimdə iştirakçılara təqsirsizlik prezumpsiyası, həmin prinsipin tarixi və qanunvericilikdəki yeri barədə geniş məlumat verilib, trasologiyanın predmeti, əsaslandığı elmi müddəalar ətraflı izah olunub.

Sonda suallar cavablandırılıb, trasoloji ekspertizaların tətbiq edildiyi Robert Şvartz cinayəti barədə “İstintaq təcrübəsi, izin sirri” sənədli filmi nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

## Avstraliyalı turist Mark Taylor: *“Naxçıvandakı qonaqpərvərlikdən çox razıyam”*

May ayının gəlişi və gözəl yaz günlərinin başlanması ilə Naxçıvana səyahət edən turistlərin də sayı birəbeş artıb. Dünyada son iki ildən artıq bir müddətdə davam etmiş səyahət məhdudiyyətlərinin sona çatması, həftəsonu tətillərinin və bayram günlərinin də bolluğu səbəbindən bu günlərdə ölkəmizin digər bölgələrindən



və eləcə də dünyanın hər yerindən gələn turistləri Naxçıvanda görmək mümkündür. Ötən həftə dünyanın o başından, Avstraliyadan gəlmiş turist Mark Taylorun çıxdığı dünya turunun növbəti destinasiyası Naxçıvana marağı da səfərdən aldığı təəssüratlar kimi zəngin olub.

Mark Taylor dünyanın bir çox ölkəsini gəzib. Dediyinə görə, 70 yaşlı bu peşəkar turist komfortlu hotellərdə qalmağa, milli yeməklər dadmağa, rahat nəqliyyat və yaxşı ekskursiya servislərinə pul xərcləməyə hazırdır. Ölkəmizin paytaxtı və digər regionlarla tanışlıqdan sonra Türkiyəyə məhz Naxçıvandan keçib getmək üçün bu marşrutu seçməsində də bu motivlər əsas olub. Naxçıvandakı komfortlu Saat Meydanı hotelində gecələyən avstraliyalı turist Naxçıvanın görməli yerlərindən Duzdağı, qədim Ordubad şəhərini, Naxçıvan şəhərindəki muzeyləri və abidələri çox bəyənib. Azərbaycanın Maçu-Piçusu-Əlincəqala isə onun təsəvvürlərini tamamilə dəyişib. Səyyah deyir ki, indiyə qədər Peruda olmasa da, Əlincəqalanın bənzərini görmək üçün hökmən oraya da səfər edəcək.

Avstraliya dünyanın əksər yerlərindən uzaqda olsa da, Mark Taylor ölkəmiz haqqında əvvəlcədən məlumatı olduğunu diqqətimizə çatdırır. Turistin Naxçıvan mətbəxinə olan marağı, Ordubada səfər zamanı yolüstü rast gəldiyi landşaft quruluşunun onun yaşadığı Şimali-Qərbi Avstraliya bölgəsində də olması qonağımızı



çox təəccübləndirib. Haqlı olaraq, turist dili ilə desək, yaşadığımız dünyanın çox kiçik olduğunu bir daha vurğulayan əcnəbi qonaq Azərbaycana, onun bu dilbər guşəsinə çatmaq üçün bir neçə hava yolu dəyişərək 24 saatdan artıq uçuş keçirməyə dəydiyini məmnunluqla söylədi. Xalqımızın qonaqpərvərliyindən də çox razı qaldığını bildirən turist ölkəmizin inkişafından, tarixi-mədəni zənginliklərdən dərin təəssürat aldığını, bu təəssüratları ölkəsində paylaşacağını dedi.

✍ **Əli CABBAROV**

## Növbəti turun oyunları keçirilib



*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş beynəlxalq şahmat turnirində növbəti turun oyunları keçirilib.*

Liderlər cədvəlində qərarlaşan Naxçıvan şahmatçılarından FIDE ustamız Sadiq Məmmədov (2265) bu turda beynəlxalq usta İsmayıl Şahəliyevlə (2386) görüşdən məğlub ayrılıb. Beynəlxalq usta Toğrul Həsənzadə (2279) də bu turda məğlubiyyət acısı dadıb. O, türkiyəli qrossmeyster Kıvanc Haznədaroğlunun (2425) müqavimətini qıra bilməyib. Beynəlxalq usta Talıb Babayev (2218) İlqar Məmmədovu (1658) məğlub etməyi bacarıb. Digər beynəlxalq ustamız Pərviz Qasımov (2331) da növbəti bir xalını qazanıb. Ayan Hüseynli (1467) üzərində qələbədən sonra Pərvizin xal ehtiyatı 4,5-ə çatıb. Nazlı Hümbətova (1686) isə azərbaycanlı FIDE ustası Rəşad Zeynallıya (2226) məğlub olub.

Bu tur bir sıra maraqlı görüşlərlə yadda qalıb. Belə ki, turnirin bir nömrəli şahmatçısı iranlı qrossmeyster Şahin Lorparizangeneh (2502) növbəti xalını həmyerlisi Reza Mehdavini (2303) məğlub etməklə qazanıb. Azərbaycanlı qrossmeyster Vüqar Rəsulov (2445) isə bu uğura Rəşad Həsənov (2142) üzərində qələbə qazanmaqla nail olub. İranlı FIDE ustası Morteza Əsgəri (2244) Emin Novruzovdan (1981) üstün olub. Azərbaycanlı qrossmeyster Zaur Məmmədov (2410) isə Fariz Əhmədovla (2182) görüşdə xalları yarı bölüb.

Hazırda turnir cədvəlinə 6 xalla İsmayıl Şahəliyev başçılıq edir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən və mayın 14-dək davam edəcək beynəlxalq turnirdə Azərbaycan, İran, Türkiyə və Ukraynadan olmaqla, ümumilikdə, 214 şəka sahibi mübarizə aparır. Turnirdə muxtar respublikanı 81 şəka sahibi təmsil edir.

## Basketbol birinciliyi başa çatıb

Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin idman zalında “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında Naxçıvan şəhər tam orta məktəblərinin oğlan komandaları arasında basketbol birinciliyi keçirilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən birincilikdə 17 komanda iştirak edib. Beynəlxalq Basketbol Federasiyasının mövcud qaydalarına əsasən keçirilən birinciliyin yekununa əsasən 17 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərini üstələyərək qalib adını qazanıb. 16 nömrəli tam orta məktəbin komandası ikinci, 13 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.



Qalib komandalara və komanda üzvlərinə təşkilatçıların diplomları təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi “Naxçıvan Muxtar Respublikasının dövlət qurumlarında informasiya təhlükəsizliyinin təminatı üzrə Nümunəvi Təlimat”a uyğun olaraq dövlət qurumlarında informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə Dövlət İmtahan Mərkəzində Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birgə növbəti seminar keçirilib.*

## *“Dövlət qurumlarında informasiya təhlükəsizliyi”* mövzusunda növbəti seminar



Dövlət İmtahan Mərkəzinin sədr müavini Ümid Qurbanov çıxış edərək bildirib ki, bu gün dövlət qurumlarında müasir texnologiyaların tətbiqi və onlardan istifadə geniş vüsət alıb. Yeni texnologiyalardan, internet resurslarından istifadə informasiya təhlükəsizliyinin təmin olunması və informasiya-kommunikasiya texnologiyalarından düzgün və təhlükəsiz istifadəni təmin etmənin zəruriliyini də ortaya qoyur. Keçirilən tədbir dövlət qurumlarında informasiya təhlükəsizliyinin təmin edilməsi, o cümlədən potensial təhdidlərə qarşı qabaqlayıcı tədbirlərin müəyyən olunması məqsədi daşıyır.

Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşı Məhərrəm Zeynalov çıxış edərək artıq ikinci dəfə keçirilən seminarın əhəmiyyətinə toxunub. Bildirilib ki, bu istiqamətdə müvafiq tədbirlər davam etdiriləcək.

Sonra nazirliyin əməkdaşı İnci Şirzadova slayd vasitəsilə Nümunəvi Təlimat barəsində ətraflı məlumat verib. Qeyd edilib ki, təlimatda dövlət qurumlarında informasiya təhlükəsizliyinin təşkili və təmini qaydaları, habelə struktur bölmələr və əməkdaşlar üçün informasiya təhlükəsizliyi sahəsində məcburi tələblər müəyyənləşdirilib. Təlimatda nəzərdə tutulmuş informasiya təhlükəsizliyinin təminatı barədə tələblərin pozulmasına yol vermiş hər bir əməkdaş qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

Seminarda dövlət orqanlarının informasiya texnologiyaları və təhlükəsizliyi sahəsinə cavabdeh olan 28 nümayəndəsi iştirak edib. Seminarın sonunda dövlət qurumlarının əməkdaşlarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Doktorantın elmi məqaləsi Crosseft indeksli jurnalda nəşr olunub



“Naxçıvan” Universitetinin İdarəetmə kafedrasının doktorantı Rifat Mahmudovun “Əhaliyə özəl müəssisələr ilə xidmətin təhlili (Analysis of services to the population by private enterprises)” adlı elmi məqaləsi Estoniya-Tailində dövri elmi nəşrlərin daxil olduğu beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan Crosseft indeksli “PIRECT” jurnalında dərc olunub.

Elmi məqalədə özəl müəssisələrin cəmiyyətin həyatında və iqtisadiyyatda tutduğu payı və rolu ətraflı şəkildə araşdırılıb, təhlil edilib. Adıçəkilən məqalə bu il üçün xaricdə ilk dəfə dərc olunan məqalələr sırasındadır.

Rifat Mahmudovun bu günədək işıq üzü görmüş 7-yə yaxın məqaləsindən 4-ü xaricdə nüfuzlu jurnallarda və beynəlxalq konfranslarda çap edilib. Onu da bildirək ki, Rifat Mahmudov həm də 2 kitabın (“Makroiqtisadiyyat” və “Hər kəs üçün iqtisadiyyat”) həmmüəllifi, 1 fənn proqramının isə müəllifidir.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

### Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin aprel ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3100 | 263,5 | 263,5 | 100,0 |
| 2. | Şərur rayonu | 1631 | 133,5 | 133,5 | 100,0 |
| 3. | Babək rayonu | 1543 | 126,5 | 126,5 | 100,0 |
| 4. | Ordubad rayonu | 780 | 64,2 | 64,2 | 100,0 |
| 5. | Culfa rayonu | 852 | 70,3 | 70,3 | 100,0 |
| 6. | Kəngərli rayonu | 678 | 57,5 | 57,5 | 100,0 |
| 7. | Şahbuz rayonu | 291 | 24,4 | 24,4 | 100,0 |
| 8. | Sədərək rayonu | 219 | 17,8 | 17,8 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 22642 | 2281,8 | 2276,6 | 99,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **31736** | **3039,5** | **3034,3** | **99,8** |

**Qeyd:** Aprel ayında texniki itki nəzərə alınmaqla verilən 31 milyon 736 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 39 min 500 manat olmuş, cəmi 3 milyon 34 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,8 faizini təşkil edir.

### Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin aprel ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1923394 | 300780 | 300813 | 100,0 |
| 2. | Ordubad rayonu | 1176162 | 165962 | 165979 | 100,0 |
| 3. | Şərur rayonu | 1923352 | 285984 | 286008 | 100,0 |
| 4. | Şahbuz rayonu | 768895 | 112101 | 112107 | 100,0 |
| 5. | Culfa rayonu | 968987 | 146440 | 146446 | 100,0 |
| 6. | Babək rayonu | 2057040 | 333987 | 333998 | 100,0 |
| 7. | Kəngərli rayonu | 820791 | 126640 | 126641 | 100,0 |
| 8. | Sədərək rayonu | 298515 | 42924 | 42924 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10306298 | 2090750 | 1946931 | 93,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **20243434** | **3605568** | **3461847** | **96,0** |

***İtmişdir***

Şərur şəhər sakini Ağayeva Aytən Samil qızının adına olan 102013008166-10301reyestr nömrəli texniki pasport və çıxarış itdiyindən etibarsız sayılır.

***

Müzəffərov Cəfər Mübariz oğlunun adına olan traktorun texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ *qapısı*
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 412